# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏR PROBLEMİ MƏZMUN VƏ MAHİYYƏT BAXIMINDAN KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİ FONUNDA


**Xülasə**

Bəşər mədəniyyəti tərəfindən müxtəlif tarixi dövrlərə aid ayrı-ayrı xalqların mədəniyyətləri keyfiyyət baxımından fərqləndirilərək gələcəyə ötürülmüşdür. Ziddiyyətliliyin və rəqabətliliyin keyfiyyətli "məhsulu" olan mədəniyyət "müasirlik" anlayışı məzmununda zənginliyi qoruyub saxlamışdır. Zehni qabiliyyətinə görə intellektlik çərçivəsində elitarlıq təşəkkül tapmış və zaman-zaman kütləviliyə çevrilmişdir. Beləliklə də keyfiyyətliliyi ilə zənginliyi daha da artıran elitar mədəniyyət müvafiq olaraq kütləvi mədəniyyəti də zənginləşdirmişdir. Bu prosesdə elitar mədəniyyətin prinsipial baxımından kamilliyi keyfiyyət nöqteyi-nəzərindən kütləvi mədəniyyətdən üstünlüyünü sübut etmişdir, özünəməxsus xüsusiyyətləri qorumaqla daim yaradıcılıq funksiyasını təmin etmişdir.

Eyni zamanda elitar mədəniyyətdə keyfiyyətin əsas meyar olması ləyaqət amilinin də əhəmiyyətliliyini, ağıllı, istedadlı, zəkalı və işgüzar insanların yaradıcılıqlarını mənəvi dəyərlərlə sübut edir. Qeyd olunmalıdır ki, elitar və kütləvi mədəniyyətlərin sintezi sayəsində "zövq mədəniyyəti" anlayışı təşəkkül tapmışdır. Ancaq bütün tarixi dövrlərdə elitar



ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMA-LARI DERGİSİ
INTERNATİONAL JOURNAL OF TURKISH WORLD STUDIES
CİLT 5 / SAYI 2 / NİSAN 2022



**Sorumlu Yazar**
**Corresponding Author**

Mahsati CAFAROVA

Azerbaycan Çalışma ve Sosyal İlişkiler Akademisi, Ögretim üyesi
mehseti.ceferova@inbox.ru



**Gönderim Tarihi**
**Recieved**
14.01.2022

**Kabul Tarihi**
**Accepted**
24.02.2022

**Atıf**
CAFAROVA, Mahsati, (2022). "Elit ve Kitlesel Kültürleri Sorunu İçerik ve Mahiyet Açısından Niteliksel Değişimlerin Arka Planına Karşı", *Uluslararası Türk Dünyası Araştırmaları Dergisi*, (5/2), 1-18.

ARAŞTIRMA MAKALESİ
RESEARCH ARTİCLE

mədəniyyət avanqard mədəniyyət kimi özünü təsdiq etmişdir.

Elitar və kütləvi mədəniyyətlərin özlərinə məxsus funksiyaları mövcuddur. Məhz bu funksiyalar vasitəsilə bu mədəniyyətlər öz təsir güclərini göstərirlər. Bu mədəniyyətlərin ayrılması məsələsində şəhərləşmənin inkişafı, çap texnikasının təşəkkülü, incəsənətin ayrı-ayrı sahələri üzrə elitar və kütləvi zövqlər arasındakı fərqin dərinləşməsi kimi məsələlər mühüm rol oynamışdır.

Ayrı-ayrı tarixi dövrlərdə fərd, insan, şəxs, şəxsiyyət, cəmiyyət arasındakı sosial-fəlsəfi fərqlə qabarıqlığı ilə özünü göstərmiş və sübut olunmuşdur ki, bu inkişaf ayrı-ayrı xalqlarda müxtəlif səviyyələrdə baş vermişdir, mühit, şərait, baş verən hadisələr inkişafa və yaxud tənəzzülə səbəb olan amillərlə bağlı olmuşdur. Bütün bu əlaqəliliklərin mənbəyində duran insanın formalaşması və bu formalaşma nəticəsində baş verən dəyişikliklər cəmiyyətin inkişafına təkan vermişdir.

Elita anlayışına A.Şopenhauer, F.Nitsşe, N.Berdyayev və digər tanınmış alim-filosofların müxtəlif yanaşmaları olmuşdur. Bu yanaşmalarda yaradıcı insan “düha adamlar”, “sürünən adamlar”, “fövqəlinsan” qismində müqayisə edilir, “həlledici mühit”, “başa düşənlik” və digər amillər önə çəkilir. Beləliklə, müxtəlif mədəniyyətlər arasında baş verən qarşılıqlı əlaqəlilik sayəsində vahidlik prinsipi əsasında bir-birinə bağlılıq qanunauyğunluğun yaranmasına səbəb olur və mədəniyyətin istehsalı və kütləvi istehlakı prosesi baş verir. Bu prosesdə aparıcı amil olan elitar qüvvənin məhsulu olan elitar mədəniyyət vasitəsilə kütləvi mədəniyyətin inkişafı və istiqamətlənməsi mexanizmi yaranır.

**Açar Sözlər***:* elitar mədəniyyət, kütləvi mədəniyyət, keyfiyyət amili, qanunauyğunluq, qarşılıqlı əlaqəlilik, insan amili, incəsənət

## THE PROBLEM OF ELİTE AND MASS CULTURES AGAİNİST THE BACKGROUND OF QUALİTATİVE CHANGES İN TERMS OF CONTENT AND ESSENCE

### Abstract

The cultures of different peoples belonging to different historical periods have been qualitatively differentiated and passed on to the future by human culture. Culture, a qualitative "product" of contradiction and competition, has retained its richness in the context of the concept of "modernity". According to their intellectual abilities, the elite was formed within the intellect and from time to time became popular. Thus, the elite culture, which further increases the quality and richness, has enriched the mass culture accordingly. In this process, the principled perfection of elite culture has proved its superiority over mass culture in terms of quality, and has always provided a creative function while preserving its unique features.

At the same time, the fact that quality is the main criterion in elite culture proves the importance of the factor of dignity, the creative

values of intelligent, talented, intelligent and business people with moral values. It should be noted that the concept of "culture of pleasure" was formed due to the synthesis of elite and mass cultures. However, throughout history, elite culture has proved itself as avant-garde culture.

Elite and mass cultures have their own specific functions. It is through these functions that these cultures exert their influence. Issues such as the development of urbanization, the formation of printing techniques, the deepening of the gap between elite and popular tastes in various fields of art played an important role in the separation of these cultures.

In different historical periods, the socio-philosophical differences between the individual, the person, the human, the personality, the society have manifested themselves and it has been proved that this development has taken place at different levels in different nations, environment, conditions, events was due to the factors that caused it. The formation of the person who is the source of all these connections and the changes that occur as a result of this formation have given impetus to the development of society.

A. Schopenhauer, F. Nietzsche, N. Berdyaev and other well-known scientists and philosophers had different approaches to the concept of elite. In these approaches, the creative person is compared as "smart people", "creepy people", "superhuman", "decisive environment", "understanding" and other factors are highlighted. Thus, due to the interdependence between different cultures, the interdependence on the basis of the principle of unity leads to the emergence of regularity, and the process of production and mass consumption of culture takes place. In this process, a mechanism emerges for the development and orientation of mass culture through elite culture, which is a product of elite power, which is a leading factor.

**Key Words:** elite culture, mass culture, quality factor, regularity, interdependence, human factor, art

## Giriş

Bəşər mədəniyyətinin keçdiyi tarixi-inkişaf yolu ayrı-ayrı dövrlərə uyğun əldə olunan müxtəlif xalqların mədəniyyətlərinin mahiyyət və məzmununun xarakterik xüsusiyyətlərini qoruyub saxlamışdır. Məhz mərhələli şəkildə baş verən belə proseslər ayrı-ayrı xalqların sosial-iqtisadi problemlərinin də həllində mühüm əhəmiyyətə malik olduğundan həyati aktuallığı ilə bütün dövrlərdə fərqlənmişdir. Təbiidir ki, hər bir tarixi dövrün ab-havasını özündə əks etdirən müxtəlif xalqların mədəniyyətləri keyfiyyət amilinin gücünə,

təsirliliyinə görə fərqləndirilmiş və bəşər mədəniyyətində müvafiq yerini tutmuşdur. Belə “ziddiyyətlilik” şəraitində xalqların öz mədəniyyətlərinin dəyərliliyini daha da artırmağa səy göstərmələri qanunauyğun hal almışdır və beləliklə də, mədəniyyətlərdə rəqabətlilik açıq müstəviyə keçmişdir.

Tarixi dövrlərdə hər bir mərhələnin inkişaf səviyyəsinə uyğun “müasirlik” anlayışı məzmununda tərəqqisi olmuşdur. Məhz ayrı-ayrı xalqların mədəniyyətindəki bu “tərəqqilər” bəşər mədəniyyətini yaratmış və hazırki inkişafda özünü göstərməkdədir. Qeyd edək ki, bütün bu fəaliyyətlərin məzmununda insan amili dayanır. Məhz xalq insanın zehni gücündən istifadə yolu ilə özünəməxsus maddi-mənəvi abidələrini dövrünə uyğun müasirlik kontekstində daim ədəbiləşdirmiş və əldə etdiyi zənginliyi sonrakı tarixi dövrlərə ötürməyə nail olmuşdur. Beləliklə, insanların dünya mədəniyyətini daha da zənginləşdirmələri milli mədəniyyətlərin mənbəyində öz müsbət həllini tapır.

## 1. Elitar və Kütləvi Mədəniyyətlərin Təşəkkülü və Özlərinəməxsus Cəhətləri

Öz zehni fəallığı, dünyanı dərketmə səviyyəsi, baş verən hadisələrə münasibət bildirmə dərəcəsi və təfəkkür qabiliyyətinə görə seçilən insanların intellektliliyi çərçivəsində xalqını mədəni sahədə istiqamətləndirmələri elit qüvvələrin təşəkkülünü labüd etmişdir və elitar mədəniyyətin yaranmasına səbəb olmuşdur. Məhz elitar mədəniyyətin yaranması və inkişafı mərhələli xarakter alaraq kütləvi mədəniyyəti yaratmışdır. Beləliklə elitar və kütləvi mədəniyyətlərin sosial zaman və məkan müstəvisində mərhələli inkişafı, formalaşması və gələcək inkişaf perspektivlərinin sosial-fəlsəfi təhlili son dərəcə əhəmiyyətli olmaqla yanaşı, həm də mühüm əhəmiyyət kəsb edir.

Elitar və kütləvi mədəniyyətlər arasında baş verən dəyişikliklər əsasən keyfiyyət xüsusiyyətləri ilə xarakterizə olunur. Mədəni müxtəlifliyin artması, kütləvi sənayeləşmə dövründə standartlaşmadan uzaqlaşma meyilləri elitar və kütləvi mədəniyyətlərdə kəmiyyət dəyişikliyi zəminində baş verən proseslərin sürətli hal alması üçün şərait yaratmışdır.

Günümüzdə müasir sosial-mədəni inkişafın müxtəlifliyi yalnız mədəniyyətin fenomenoloji təzahürləri ilə müşahidə edildiyindən onun qanunauyğunluqları və qanunlarını qavramaq mürəkkəblik yaradır. Elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı münasibətlərinin mürəkkəbliyi, onların fərqli funksional təbiəti, sosial, texniki, estetik və digər amillərin təsiri altında çevrilə bilmə qabiliyyəti, əvvəlki təcrübə də nəzərə alınmaqla, elitar və kütləvi mədəniyyət anlayışlarını yeni bir kritik səviyyədə nəzəri olaraq dərk edilməsini zəruri etdi.

Elitar mədəniyyət prinsipial cəhətdən kamildir, keyfiyyət nöqteyi-nəzərindən kütləvi mədəniyyətdən üstün olan və kütləvi mədəniyyətə qarşı çıxan, subyektiv xüsusiyyətlərini qoruyan və yaradıcı funksiyanı təmin edən mədəniyyət nümunəsidir. Elitar mədəniyyət ali mədəni dəyərlərin istehsalı ilə xarakterizə olunan bir mədəniyyətdir, nəsillərin intellektual, mənəvi və bədii təcrübəsini məcmu halında özündə ehtiva edir.

Tanınmış kulturoloq Fuad Məmmədov elitar mədəniyyəti “yuxarı təbəqənin mədəniyyəti” və kütləvi mədəniyyəti isə “aşağı təbəqə”nin mədəniyyəti kimi xarakterizə edir. *“Mədəni yaradıcılığın subyektləri kimi həm ziyalıların ayrı-ayrı nümayəndələri və ya onların kollektivləri, həm də bütövlükdə xalq kütlələri çıxış edirlər. Cəmiyyətin ruhi mədəniyyətinin yaradılması mexanizmi iki “təbəqənin” qarşılıqlı təsiri nəticəsində yaranır – xalqın adi şüuru (“aşağı təbəqə”) və ziyalılar tərəfindən (“yuxarı təbəqə”) həyata keçirilən peşəkar “ruhi istehsal”* (Məmmədov, 2016:51).

Hər bir insan fitrən eyni xarakterə malik deyildir, bəzi insanlar anadangəlmə olaraq istedadlı və qabiliyyətli şəkildə dünyaya gəlir. Məhz bu tip insanlar da sonradan elitar təbəqəni təşkil edir. Elitar mədəniyyətdə konkret bir sosial sinifdən deyil, yaradıcı şüurdan bəhs edilir. Kütləvi mədəniyyətin təmsilçilərini keyfiyyət deyil, kəmiyyət maraqlandırır, elitar mədəniyyətdən fərqli olaraq kütləvi mədəniyyət bəsit və bayağı olması ilə diqqəti cəlb edir və kütləvi mədəniyyətin təmsilçiləri bilikli olmağa meyil etmirlər.

“Mədəniyyət cəmiyyətdə ictimai şüurun formalaşmasında iştirak edir. Bu zaman onun problemləri fəlsəfi aspektdə təhlil edilməlidir. Mədəni dəyərlərin istehsalı və istehlakının xüsusiyyətləri kulturoloqlar tərəfindən mədəniyyətin iki sosial

formasının mövcudluğunu ortaya qoymağa imkan verdi: elitar mədəniyyət və kütləvi mədəniyyət”(Əlibəyli, 2013).

Elitar mədəniyyətin təmsilçiləri indi artıq bütün mədəni üslublardan geniş və sərbəst şəkildə istifadə edirlər. Xüsusilə də keçən yüzilliyin 60-cı illərindən etibarən elitar mədəniyyətlə kütləvi mədəniyyət formalarının qarışığından meydana gəlmiş yeni formalar ortaya çıxmağa başladı. Kütləvi mədəniyyət kütləvi tərzdə sənayeləşmiş cəmiyyətin inkişafı zəminində ortaya çıxması ilə xarakterikdir. Kütləvi mədəniyyət elitar mədəniyyətdən fərqli olaraq özünəməxsus cəhətlərə malikdir. Belə ki, kütləvi mədəniyyət yeni ictimai təbəqəni formalaşdıraraq baş verən hadisələri sadəlövh şəkildə əks etdirir, şüurlarla rasional təşəkkülün inkarını əmələ gətirir və s. (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010: 185-186).

Elitar mədəniyyətdə keyfiyyət əsas meyar olduğu üçün ləyaqət amili də mühüm əhəmiyyət kəsb edir. Ağıllı, istedadlı, zəkalı, fəzilətli və işgüzar insanların yaradıcılığı sayəsində təzahür edən elitar mədəniyyət mənəvi dəyərlərlə özünü biruzə verir.

Alim-tədqiqatçıların ideyalarına görə, elitar mədəniyyət hətta kütləvi mədəniyyətlə birləşir ki, bunun da nəticəsində iki mədəniyyətin sintezi baş verir. Bu sintez vasitəsilə “zövq mədəniyyəti” anlayışı formalaşmışdır (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010: 170). Araşdırmalardan məlum olmuşdur ki, kulturoloq və filosof alimlər elitar mədəniyyətdə keyfiyyət dəyişikliklərini ayrı-ayrı müdəalarla və amillərlə aydınlaşdırmışlar. Bu müddəallardan ən başlıcası kütləvi mədəniyyətin cəmiyyətdə geniş əhatəyə malik olmasıdır (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010: 170-171).

Akademik Ramiz Mehdiyev mədəniyyətin kütləvi və elitar formalarının fərqliliyini göstərmişdir: *“Elitar mədəniyyət yalnız intellektual elita üçün əhəmiyyətlidir və geniş xalq kütlələri üçün əlçatmazdır. Xalq kütlələri yalnız kütləvi mədəniyyəti başa düşür və qəbul edirlər”* (Mehdiyev, 2010:262).

Orteqa-i-Qassetə görə, elitar və kütləvi mədəniyyətlər arasındakı fərqin mütləqləşdirilməsi nəticəsində populyar və qeyri-populyar incəsənətin ayrılması, T. Adornoya görə elitar və kütləvi mədəniyyətlə bağlı bədii şüurun tipologiyasının

yaradılması bu mədəniyyətlərin fərqliliyini bir daha sübut edir (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010:171).

Elitar mədəniyyət avanqard mədəniyyət kimi özünü göstərir. XX əsrin 60-cı illərinin sonunda isə azlığın mədəniyyəti sayılan “avanqard mədəniyyət” elitar avanqardizm adlandırılır (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010:180). Elitar avanqardizm Azərbaycan musiqi incəsənətində Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Şəfiqə Axundova və digər şəxsiyyətlətin yaradıcılığında, həmçinin “pop-musiqi” sahəsində də əks olunmuşdur.

Elitar mədəniyyətin inkişafı prosesində təhsil mühüm rol oynayır. Elitar mədəniyyətin aşkara çıxması üçün istedad və təhsil müştərək çalışmalıdır. Bu müştərək çalışmanın mövcud olmadığı cəmiyyətlərdə mədəniyyət məhvə məhkumdur. Ümumiyyətlə, cəmiyyətin inkişafında elitanın gücü danılmazdır.Elit insanları yetişdirməyən cəmiyyətlərdə mədəniyyətin inkişafı, həmçinin xalqın suverenliyi şübhə altına alınır. Cəmiyyətin daha yaxşı bir səviyyəyə çatdırma məsuliyyəti də elitar təbəqənin üzərinə düşür.

Araşdırmalara görə, kütləvi mədəniyyətin kütləvi informasiya vasitələrinin köməyi ilə yayılması, kommersiya xarakteri daşıması, kütləvi istehlakçıya istiqamətlənən mədəniyyət növü olması ilə xarakterizə olunur. “Kütləvi mədəniyyətin mahiyyəti şəxsləşdirilmiş inkulturasiyadan, yəni, dünyagörüşü və davranış normalarını öyrədənin şəxsi təcrübəsinin öyrənənə ötürmə yolu ilə translyasiyası, insanların kütləvi akkulturasiyası, yəni elitar mədəniyyət nailiyyətlərinin adi mədəniyyət dilinə çevrilməsi və cəmiyyətdə onların kütləvi tirajlanması ilə şərtlənir”(Məmmədov, 2016:52).

Mədəniyyətin elitar və kütləvi mədəniyyət adı altında birləşdirməsini sosial varlıq və sosial idarəetmə strategiyalarının iki növü kimi də qavramaq olar. Məhdud özünüidarəetməyə malik olan, keyfiyyət etibarilə üstünlük təşkil edən elitanın və tamamilə dominant mahiyyət kəsb edən kütlənin meydana gətirdiyi mədəniyyət nümunələri özünüidarəetmə, fərqli istehsal, yenilik, istehlak və fərqli tənzimləmə münasibətləri baxımından müxtəlifdir. Bunu müxtəlif tarixi dövrlərə aid bədii sənətkarlıq nümunələrində, dekorativ-tətbiqi sənətkarlıq, təsviri sənət, heykəltəraşlıq, memarlıq nümunələrində, musiqi sənətkarlığında

və digər sahələr üzrə mövcud nümunələrin timsalında görmək olar. Beləliklə, kütləvi mədəniyyətdə intellektual cəhətdən aşağı olan insanların zəif yaradıcılıq qabiliyyəti ehtiva olunmuşdur, elitar mədəniyyətdə isə məhdudlaşdırılmış təcrübənin intellektual üstünlükləri özünü biruzə verir.

## 2. Elitar Mədəniyyət və Mədəni Dəyərlərin İstehsalı

Elitar mədəniyyətin mahiyyətində mədəni dəyərlərin istehsalı, toplanması bərpası, qorunması və gələcək nəsillərə ötürülməsi sahəsində sosial lokalizasiya mövcuddur. Kütləvi mədəniyyət isə əsasən maddi vəsaitlərin istehlakına yönəldilmişdir. Elitar mədəniyyətdə dini, fəlsəfi, bədii və publisistik mətnlər, rituallar və rəmzlər əks olunmuşdur. Kütləvi mədəniyyət üçün hər şeydən əvvəl müxtəlif sosial mühitlərdə üstünlük təşkil edən ayrı-ayrı sahələr üzrə ənənələr kütlələrə öz təsirini göstərir.

XIX-XX əsrlərdə elitar təbəqə haqqında irəli sürülən nəzəriyyələr burjua demokratiyasında meydana gələn böhranları tənzimləməyə istiqamətlənmişdir. “Müasir elita nəzəriyyələri XIX əsrin sonu XX əsrin əvvəllərində burjua demokratiyasının böhranı şəraitində xalq kütlələrinin idarə etmək qabiliyyətinin olmadığı və əvvəlki aristokratiya ideyalarının geniş yayılmağa başladığı dövrdə meydana gəlmişdir”( Tağıyev,1990:164-165).

Elitar mədəniyyət ümumbəşəri dəyərlərə malik olan, hər zaman kamilləşməyə çalışan, yenilikçi layihə və modelləri özündə cəmləşdirən mədəniyyət formasıdır. Elitar təbəqə də cəmiyyətdəki müxtəlif proseslərin idarəçilik qabiliyyətinə malik olan insanlar kimi qloballaşma prosesinin "bələdçisi" funksiyasını öz öhdəsinə götürür, qlobal məkanda milli mədəni sərhədləri tənzimləyir, milli mədəniyyəti beynəlxalq mühitə uyğunlaşdırmağa çalışır.

Araşdırmalardan məlum olmuşdur ki, həm elitar, həm də kütləvi mədəniyyətlər müxtəlif tarixi şəraitlərdə formalaşmışdır. Elitar mədəniyyətin inkişaf dövrü və təşəkkül tapması erkən sivilizasiyaların yaranması ilə əlaqədar olmuşdur ki, elitar mədəniyyəti yaratmaq üçün xüsusi bacarıqlar, biliklər tələb olunmuşdur. Kütləvi mədəniyyətdə fərdin uyğunlaşması, şəxsiyyətin tamamilə və ya qismən tənzimləndiyi sosial normalar passiv tabeçilik variantda təqdim olunur və onun

inkişafının məqsədi fərdin müəyyənləşdirilməsi deyil, fərdi prinsipin kütlələr arasında yayılmasıdır. Elitar mədəniyyət obyektiv şəkildə beynəlmiləlləşməyə çalışaraq qloballaşmanın inkişafına öz töhfəsini verir, kütləvi mədəniyyət funksional təzahürlərində elitar mədəniyyətlə ziddiyyət təşkil etsə də, təbiətcə kosmopolit olduğundan əsasən milli mədəniyyəti formalaşdırmağa meyillidir.

Postmodernizm dövrünə aid elitar və kütləvi mədəniyyəti bir-birindən fərqləndirmək olduqca çətindir. Bu baxımdan da elitar və kütləvi mədəniyyətin xüsusiyyətləri daha dərindən araşdırılmalıdır. Elitar və kütləvi mədəniyyətin xüsusiyyətlərinin tədqiqi isə müxtəlif bölgülər üzrə aparıldıqda daha məqsədəuyğundur.

Müasir elmi ədəbiyyatda kütləvi mədəniyyətin müxtəlif funksiyaları mövcuddur. Bəzi mənbələrdə kütləvi mədəniyyət XX əsrdə yeni kommunikativ və reproduktiv sistemlərin inkişafı (kütləvi mətbuat və kitab nəşriyyatı, səs və video qeydləri, radio və televiziya, xoreoqrafiya, peyk rabitəsi, kompüter texnologiyası) və əldə olunan nailiyyətlər nəticəsində qlobal məlumat mübadiləsi ilə əlaqələndirilir. Kütləvi mədəniyyətlə bağlı digər baxışda isə onun istehsalının və geniş spektrdə yayılmasının təşkili üçün sənaye və post-sənaye cəmiyyətinin yeni tipli sosial quruluşunun inkişafı ilə əlaqəsi vurğulanır. Kütləvi mədəniyyətin funksiyaları haqqında ikinci anlayışda müasir dövr mədəniyyətinin sosial-tarixi məzmunu və dəyişiklik tendensiyaları nəzərə alınır. Kütləvi mədəniyyət XX əsrin mədəni hadisələri və müasir cəmiyyətdə kütləvi istehlak üçün hazırlanan mədəni dəyərlərin istehsal xüsusiyyətlərinin birləşməsidir. Kütləvi mədəniyyətin şəraitindən asılı olmayaraq bütün insanlar tərəfindən istehlak edildiyi güman edilir (Manafova-Əfəndiyeva-Şahhüseynova, 2010:182).

Elit təbəqənin nümayəndələrinin zehni çevikliyi bütün sosial siniflərdə özlərini biruzə verir. Elita cəmiyyətin təkcə hakim deyil, eyni zamanda ziyalı və istedadlı hissəsidir, ən yüksək mənəvi və estetik qabiliyyətlərə malikdir, ali mənəvi fəaliyyətlə özünü biruzə verməyə qadirdir. Dahi alman filosofu Artur Şopenhauer bəşəriyyəti ümumilikdə iki yerə - dahi və faydalanan insanlara bölmüşdür.

Dahi insanlar bölgüsünə daxil olanlar estetik düşüncəyə və bədii fəaliyyətə qadirdir, bir sıra üstün məziyyətlərə malikdirlər, ikinci bölgüyə daxil olanlar, yəni faydalanan insanlar yalnız sırf praktik, utilitar fəaliyyətlə məşğuldular (Şopenhauer, 2012).

Elitar və kütləvi mədəniyyətin ayrılması məsələsində şəhərləşmə prosesinin inkişafı, çap texnikasının meydana gəlməsi, incəsənət sahəsində elitar və kütləvi zövq arasında olan fərqin dərinləşməsi kimi amillər önəmli rol oynamışdır. Müasir sənaye cəmiyyətinin əsasına çevrilən orta sinif nümayəndəsi üçün uğura səy göstərmək, şəxsi mülkiyyətə can atmaq və fərdiyyətçilik xarakterikdir. Kütləvi mədəniyyət nümunələri dedektiv, vestern, melodram, musiqili komediya, komiks, komediya, sketç, parodiya, vodevil və s. kimi janrlar vasitəsilə özünü biruzə verir ki, bu da keyfiyyətliliklə tətbiqdə fərqləndirilir.

İncəsənətdə və bədii yaradıcılıqda elitar və kütləvi mədəniyyət bir sıra sosial funksiyaları yerinə yetirir. Onlardan xüsusilə keyfiyyətli, yaradıcı, ünsiyyət, idraki-evristik və qiymətverici funksiyalar əlaqəli şəkildə götürülür (Hacıyev, 2012:437).

Akademik Ramiz Mehdiyevə görə mədəniyyətinin əsas funksiyasını nəsillərin mənəvi təcrübəsini qorumaq, gələcək nəsillərə çatdırmaq və mənimsəməsindən ibarətdir. Mədəniyyət idraki, informativ və adaptasiya funksiyalarını keyfiyyətlilik nəzərə alınmaqla yerinə yetirməklə dəyərlər istehsal edən bir sahədir. Elitar və kütləvi mədəniyyət istehsal etdiyi dəyərlər vasitəsilə cəmiyyəti tənzimləyir, gerçəkliyi qiymətləndirir (Mehdiyev, 2012: 262).

Professor Həmid İmanova görə mədəniyyət ictimai hadisə kimi aşağıdakı funksiyaları yerinə yetirir:

- “insanyaradıcı funksiya vasitəsilə fərd şəxsiyyətə çevrilir;

- adaptasiya funkisyası vasitəsilə cəmiyyətin dəyişikliklərə adaptasiyası və başqa sivilzasiyalara qarşılıqlı təsiri həyata keçirir;

- qeyri-gentropik funksiya vasitəsilə elitar və kütləvi mədəniyyət cəmiyyəti qorumaq üçün özünəməxsus keyfiyyətini göstərir. Elitar və kütləvi mədəniyyətlər vasitəsilə dəyərləri seçilir, məhdud əhəmiyyətli dəyərlər sıradan çıxır, bəşəriyyət

üçün lazım olanlar isə ümumbəşəri xəzinəyə daxil olur" (İmanov, 2010:417).

Kütləvi mədəniyyətdə kəmiyyət əmsalı, elitar mədəniyyətdə keyfiyyət əmsalı üstünlük təşkil etdiyindən elitar mədəniyyətdə ezoterik xüsusiyyətlər ehtiva olunur. Elitar mədəniyyətin ezoterik xüsusiyyətləri gizli biliklərlə müşahidə olunduğundan geniş kütlə üçün nəzərdə tutulmur. Elitar mədəniyyətin müxtəlif formalarının daşıyıcıları din xadimləri, dini təriqətlər, monastırlar, mason lojaları, sənətkarlıq emalatxanaları, siyasətçilər, xüsusi ədəbi-bədii və intellektual dairələr, gizli təşkilatlar olmuşdur.

Cəmiyyətin imtiyazlı qruplarının subkulturası kimi müəyyən edilən elitar mədəniyyətin gündəlik həyat səviyyəsindən yüksəkdə olduğu danılmaz bir faktdır. Elitar mədəniyyət bir tərəfdən, sosial-mədəni prosesin innovativ bir fermenti kimi çıxış edir, digər tərəfdən də, dini-fəlsəfi və ictimai-siyasi utopiyaların ideallaşmış dünyasında sosial reallıqdan və onun aktual problemlərindən uzaqlaşır. Hazırda dünyada baş verən real hadisələrə qarşı passiv etiraz formasını elitar mədəniyyətin cəmiyyətin sosial-mədəni həyatına təsir göstərə bilməməsi ilə xarakterizə etmək olar.

## 3. Elita vasitəsilə mədəniyyətdə inkişafın baş verməsi

Elitanın kütləyə təsiri sayəsində mədəniyyətdə baş vermiş inkişaf öz növbəsində elitar mədəniyyətin də yeni mərhələsinə təkan verir. Müxtəlif xalqların fəaliyyətlərinin nəticəsi olaraq onların mədəniyyəti və incəsənətinin müxtəlifliyi özünü göstərir. Bu proses eyni zamanda müxtəlif yaş qrupuna mənsub insanlar arasında da təcəssüm edir. Burada kortəbiilik, reallıq, mühit, mövcudluq kimi amillərin təsiri də nəzərə alınır. Qeyd etmək yerinə düşərdi ki, kütləvi mədəniyyətin qədimliyi və zənginliyi xalqların mənəvi və maddi dəyərlərinin adekvatlığı ilə ölçülür. Müasir dövrdə yeni texnologiyanın tətbiqi sayəsində elitar və kütləvi mədəniyyətlər arasındakı qarşılıqlı əlaqəlilik tədqiqat və təbliğat nöqteyi-nəzərindən daha əhatəli xarakter alır və müvafiq qanunauyğunluğa çevrilir.

Tarixi inkişafın bütün mərhələlərində fərd, insan, şəxs, şəxsiyyət, cəmiyyət arasında mövcud olan sosial-fəlsəfi fərqlər özünü qabarıq şəkildə göstərmiş və fərddən cəmiyyətə qədərki

fəaliyyətin ayrı-ayrı xalqlarda müxtəlif səviyyədə davamı baş vermişdir. Bu proses mühit, şərait, baş verən hadisələr, inkişafa və yaxud tənəzzülə təkan verən amillərlə bağlı olsa da, bütün bunların mənbəyində insan amili dayanır. İnsanın formalaşması, insan tərəfindən mühitdə edilən dəyişikliklər, cəmiyyət daxilində şəxsiyyətin rolu və sair bu kimi məsələlərin araşdırılması həmişə aktuallıq kəsb etmişdir. Bütün bu proseslərin mərhələli şəkildə baş verməsi idraki fəaliyyətlərlə sıx bağlı olmuşdur. Belə fəaliyyətlərin məqsədyönlü və mərhələli aparılması məhz elitarlıq və kütləviliklə əlaqədardır. Belə fərqlilikdən yaranan təbəqələşmə mühitdə baş verən hadisələri sürətləndirərək bu və ya digər istiqamətdə mühitin zənginləşməsinə səbəb olmuşdur.

Elita anlayışına müxtəlif yanaşmalar olmuşdur. A.Şopenhauer "Dünya iradə və təsəvvür kimi" kitabında insanlığı sosioloji məğzdə iki hissəyə ayırır: "düha adamlar" və "sürünən adamlar". Bununla da birincinin yüksək mənəvi, estetik daşıyıcı olduğunu söyləyir. F.Nitsşenin əsərlərində isə elitar konsepsiya "fövqəlinsan" konsepsiyasında təcəssüm olunur. "Fövqəlinsan" Nitsşeyə görə qeyri-adi estetik qavramaya malikdir (Ницше, 1990:137).

XX əsrin sonu və XXI əsrin əvvəllərində elita ilə kütlə arasında yaranan ziddiyyətlər alim-tədqiqatçılar tərəfindən araşdırma obyektinə çevrildi. Alimlərin müqayisələrinə görə belə ziddiyyətlərin təşəkkülü, davam etməsi, kütlələr arasında müəyyən gərginliyə səbəb olması amillərinin müxtəlif istiqamətliliyi təbiidir. Çünki informasiya məkanının əsas və həlledici "mühit" rolunu oynaması "mədəniyyətləşmə"nin ayrı-ayrı xalqlarda müxtəlif sürətli xarakter almasına səbəb olurdu. Digər tərəfdən də kütlələr arasında "başadüşənlik" amili özünü biruzə verməyə çalışırdı, müxtəlif mühitlərdə fərqli qavramalar və bunun müqabilində baş verən əks münasibətlərdə də fərqlilik prosesləri öz təsirini göstərirdi. Alim-tədqiqatçı N.Berdyayevin qeydlərinə görə, kütlə sadə və bəsit texniki sivilizasiyanı çətinlik çəkmədən qəbul edir, lakin ali, inkişaf etmiş mədəniyyəti qavraya bilmir, özünün malik olduğu dini dünyagörüşünü ateizmlə asanlıqla əvəz edə bilir. Beləliklə də, kütlə insanında mədəniyyətə fərdi daxilolmanın yaddaşlardan getdikcə silinmə başlayır. O, fərdin şüurundan, şəxsi vicdanından, şəxsi

mühakiməsindən məhrum olur. Şəxsiyyətin kütləviləşməsi hadisəsi mədəniyyətin ümumi böhran axarında baş verir (Hüseynov, 2012:735).

Cəmiyyətdə "kütləviləşmə"də əvvəlki mədəniyyətlə yeninin qarşılaşması prosesində müxtəlif ziddiyyətlərin meydana gəlməsi təbiidir. Çünki ilk baxışda əvvəlki mədəniyyət nümunələri "köhnə" görünsə də, yeni ilə müqayisədə "qiymətdən düşsə də", diqqəti cəlb etməsə də, tarixi dövrlərdən sonra "köhnə" sayılan həmin nümunələr daha da cəlbedici görünür, tarixi keçmişin daşıyıcısına, "elçisinə" çevrilir və mənbələşir, getdikcə də daha çox arzulanır. Məsələn, Azərbaycan mədəniyyətinin timsalında görürük ki, klassik bəstəkar mahnıları, adət-ənənələrimizdən bu günə qədər süzülüb gələn bayatılarımız, laylalarımız, deyimlərimiz, aşıq sənətkarlığı, 1930-80-ci illərdə çəkilmiş bədii filmlərimiz və sair kimi yaradıcılıq nümunələri bunun bariz nümunəsidir. Buna görə də kütləvi mədəniyyətin məzmunundan, tərkibindən "çıxarılmış" əvvəlki "mədəniyyət" sonrakı tarixi dövrlərdə kütləvi mədəniyyətin məzmununda bəziləri üçün kortəbii də olsa "vacibə" çevrilməklə kütlələr tərəfindən arzulanmağa başlayır və "şedevrləşir".

Ayrı-ayrı bütün tarixi dövrlərdə mədəni formalaşmanın bu və ya digər səviyyədə baş verməsi öz təsdiqini tapır. Təbiidir ki, belə formalaşmalar həmçinin əqli inkişafla da bağlı olduğundan, mühitdən və həmin mühitdəki mövcud şəraitdən asılı olaraq öz fərqlilikləri ilə seçilmişlər. Burada mühit amillərinin rolu mühümdür. Hazırda kütlə içərisində sürətli formalaşma mövqeyində olan yeni tip insanlar vasitəsi ilə inkişaf sürətli xarakter alır. Bunun başlıca səbəblərindən olan elektronlaşmanın bütün sahələrə təsiri danılmazdır. Elektron kütləvi informasiya vasitələri zehni baxımdan fərqlənən yeni tip insanın formalaşmasına kömək edir. Eyni zamanda hazırki şəraitdə kütlələrin zehni irəliləyişə can atmaları və dolğun informasiyaya malik olmaları bir gerçəklikdir. Yəni, elektron kütləvi informasiya vasitələri yayıldıqca kütləvi mədəniyyətin əhatə dairəsinin də genişlənməsi müvafiq olaraq sürətli xarakter alır. Lakin hazırki şəraitdə bu prosesi faciəvi hal kimi qəbul etmək düzgün olmazdı. Çünki elektron inkişaf və həmçinin rəqəmsallaşma geniş vüsət alması qarşısıalınmazdır. Müvafiq

elektron inkişaf insan beynindən kənarda ola bilməz. Bir sözlə, elektronlaşmada daxil olmaqla zehni inkişaf bütün sahələrdə zəruridir.

Ayrı-ayrı xalqların fərqli mədəniyyətləri mövcud olduğundan müxtəlif tarixi dövrlərdə bu mədəniyyətlər bir-biri ilə mütləq qarşılıqlı əlaqədə inkişaf yolunu keçirlər. Hər bir xalqın özünəməxsus maddi və mənəvi dəyərləri vasitəsilə fərqlilik özünü göstərmişdir. Tarixi dövr bu dəyərlərin mənimsənilməsini, qəbul edilməsini tələb etdiyindən vahidliyə, inteqrasiyaya meyillilik artır. Məhz mədəniyyətdə vahidlik nəticəsində kütləviliyə istiqamətlənmə baş vermiş və həmçinin mənimsəmədə müəyyən qədər rahatlıq özünü göstərir. Beləliklə də, ayrı-ayrı mədəniyyətlər arasında qarşılıqlı əlaqə nəticəsində biri-birinə bağlılıq vahidlik müstəvisində qarşılıqlı əlaqədən qanunauyğunluğun yaranması səviyyəsinə qalxır. Nəticədə maddi və mənəvi mədəni dəyərlərin istehsalı və kütləvi istehlakı prosesi baş verir. Bu prosesdə elitarlıq aparıcı mexanizmdə əsas qüvvəyə çevrilir. Bununla da elitar mədəniyyət vasitəsilə kütləvi mədəniyyətin istiqamətlənməsi, inkişafı prosesi baş verir ki, bunun da inkişaf sürəti elitar mədəniyyət tərkibində olan aparıcı zehni fəaliyyətin gücü ilə ölçülür.

## 4. Elitar və Kütləvi Mədəniyyətlərdə Fərqlilik

Qeyd edək ki, xalq mədəniyyəti ilə elitar və kütləvi mədəniyyətlər arasında fərqlilik mövcuddur. Xalqın həyat və fəaliyyətinin nəticəsi olaraq onun mədəniyyəti və incəsənəti də formalaşır, inkişaf edir. Beləliklə, xalq elita üçün mənbə rolunu oynadığından, elitanın formalaşması məhz xalqın formalaşması ilə sıx bağlıdır. Xalqa məxsus qaynaqlar, mənəvi dəyərlər, bədii sənətkarlıq, memarlıq, bədii yaradıcılıq, təsviri sənət, musiqi sənəti, şifahi və yazılı ədəbiyyat nümunələri, folklor və s. digər nümunələr xalqın içərisində elitanın təşəkkülünə, inkişafına, formalaşmasına səbəb olur. Yəni, yaradıcılıq xətti boyunca əvəzsiz olan xalqı kütlə əvəz edir. Bu prosesdə təbiidir ki, bütün yaradıcılıq nümunələri tam olaraq kütlə tərəfindən yaşadılmır və hətta mədəniyyətin bir hissəsi mərhələ-mərhələ yox olmaya məruz qalır. Sivilizasiyada xalqlar tərəfindən yaradılan dəyərlərin "saf-çürük" edilməsi prosesi gedir. Nəticədə mədəniyyətdə "dəyişiklik" baş verir, tətbiq zamanı forma

dəyişir, məzmunda da müvafiq olaraq "özgələşmə" baş verir. Beləliklə, sivilizasiya tərəfindən mədəniyyət yaranmır, mədəniyyətin yenidən dəyişməsi həyata keçirilir. Sivilizasiya bir növ özündən əvvəl yaradılanlarla barışmaq istəmir. Tanınmış alman filosofu O. Şpenqler yalnız dəyərli insanın ideyalarını, dərin məntiqini qiymətləndirir və baş verən əhəmiyyətsiz hadisələrin məhz həmin insanlar tərəfindən düzgün dərk edildiyini göstərir (Шпенглер, 1993: 47).

Hazırda mədəniyyətin dəyərləndirilməsində, qorunmasında yaşlı və orta nəsil ilə gənc nəsil arasında fərqlər mövcuddur:

1. Yaşlı və orta nəsil adət-ənənə və tarixi köklərin əsasında mədəniyyətlərin inkişafını və davamını həyata keçirir. Gənc nəslin isə bir qismi kortəbiiliyə uyaraq "məqsədsiz" mahiyyət, məzmun arxasınca getməyə can atır.

2. Yaşlı və orta nəsil incəsənətin müxtəlif növləri vasitəsilə bədii sənətkarlıq və yaradıcılıq nümunələrindəki milli mədəni dəyərlərin gələcək tarixi dövrlərə ötürülməsinə çalışır. Bu prosesdə də bir qisim gənc nəsil isə bu istiqamətdə bəsit fikirləri ilə kifayətlənməyə çalışır, ən "asan, rahat" olanla əylənməyə can atır.

3. Yaşlı və orta nəsil öz milli mədəniyyətini düzgün qiymətləndirir, gənc nəsil isə bu prosesdə qeyri-dəqiq, səthi münasibətilə seçilir. Beləliklə də, digər xalqın mədəniyyətinə "meyillənmə" kimi qeyri-mütənasiblik ortaya çıxır.

Beləliklə, ayrı-ayrı xalqların mədəni mühiti bir növ digər mədəniyyətlərin müdaxiləsinə qarşı qoruyucu sədd çəkməyə çalışır. Lakin istər-istəməz inteqrasiya proseslərinin gücləndiyi şəraitdə belə sədləri möhkəmləndirmək müşkülə çevrilir. Bu da təbiidir. Qarşılıqlı əlaqəsiz inkişaf etmiş mədəniyyətdən danışmaq qeyri-mümkündür. Mədəniyyətlərin əlaqədə inkişafı məhz dünya mədəniyyətinin dinamik inkişafına səbəb olur. Belə qarşılıqlı əlaqədə ayrı-ayrı mədəniyyətlərin itməsi, assimilyasiyaya uğraması yox, daha da inkişafı prosesi baş verməlidir. Gənc nəsil isə öz milli mədəniyyətlərini əldə etdikləri bilik, bacarıq, qabiliyyət, vərdişlərindən istifadə edərək daha da zənginləşdirməli, onun təsir dairəsini artırmalıdır.

XX əsrdə mədəniyyətdəki avanqard meyillər həmin əsrin bütün mədəni həyatına təsir göstərirdi. XXI əsrdə

mədəniyyətlərarası dialoqların əhəmiyyətli təsiri özünü göstərməkdədir. Hazırda mədəniyyətlərarası dialoq qarşılıqlı əlaqə müstəvisində öz inkişaf istiqamətlərini müəyyən edir. Məhz belə inkişaf istiqamətlərinə əməl edilməsi mədəniyyətlərarası sərhədlərin dəf edilməsinə şərait yaradır. Doğrudur, bu sərhədlər tamamilə götürülə bilməz, çünki fərqli mədəniyyətlər bütövlükdə dünya mədəniyyətinə zənginlik gətirə bilər. Ayrı-ayrı xalqların mədəniyyəti günbəgün inkişaf edərək artdığından, dünya mədəniyyətini də müvafiq olaraq zənginləşdirir.

Elitar və kütləvi mədəniyyətlərdə də fərqlilik, ayrı-ayrı xalqlara mənsub olma özünü biruzə verir. Bu prosesdə elitanın intellektuallaşması da özünü göstərir. Bəzən də intellektual elita mahiyyət etibarı ilə aristokrat təbəqənin təsirinə məruz qalır, onların diktəsi ilə fəaliyyətini davam etməyə məcbur olur. Lakin müvəqqəti məhdudiyyətlər intelektual elitarlığın fəaliyyətinin qarşısını ala bilməz.

İntellektual elitarlığın inkişafında yeni yaradıcılıq məkanına malik olmaqda məqsədyönlü fəaliyyət daha güclüdür. Elitar təbəqə insana, təbiətə, cəmiyyətə daim yeni yanaşma yollarını axtarır və həmçinin kütləvi şüur formalarına müqavimət formalarını seçir, lazım gəldikdə bu formaları tətbiq edir.

Postmodernist incəsənət aktivliyə meyililiyi ilə elitar xüsusiyyətə malikdir. Bu incəsənət əslində kütləvi auditoriya üçündür. Kütləvi şüur bu incəsənətdə istədiyini tapmağa nail olur. Kütləvi təsəvvürdə isə incəsənətlə əyləncə arasındakı sərhəd  yox olur.

**Nəticə**

Beləliklə, apardığımız araşdırmadan aşağıdakı nəticəyə gəlmək olar:

1. Keyfiyyət dəyişikliyi sayəsində mədəniyyətin zənginliyi elita tərəfindən dəyərləndirmə dərəcəsi ilə ölçülür. Məhz bu zənginlik yaradıcı şüurun qabiliyyətliliyi ilə düz mütənasibdir. Sənət əsəri yaradan əsl sənətkaristedadına, şəxsi məsuliyyət hissinə, vicdanına və zövqünə əsaslanır. Yaradılan nümunə incəsənətlə mədəniyyət tərkibində məzmuna çevrilərək xəlqiləşir və kütlələrə ötürülür. Və bu ötürülənin kütləviləşmə

dərəcəsi məhz onun bədii gücünün keyfiyyət dərəcəsi ilə ölçülür.

2. Xalqların mədəniyyətlərinin tarixilik baxımından müxtəlifliyi, onların əcdadları tərəfindən ayrı-ayrı tarixi dövrlərdə mövcud olan və keyfiyyəti ilə seçilən qədim maddi, mənəvi mədəniyyət nümunələri, dəyərləridir. Yəni, kütləvi mədəniyyətin inkişafı nümunələr və dəyərlərin tarixiliyi, qədimliyi və bilavasitə keyfiyyətliliyi ilə ölçülür. Hər bir xalqın özünəməxsus bədii sənətkarlıq və yaradıcılıq nümunələri müxtəlif tarixi dövrləri özündə əks etdirdiyi kimi, mif və folklor kimi mənəvi dəyərlər də qədimliyi özündə daşıyır. Əksər hallarda bu dəyərlər keyfiyyət baxımından bütün region və ölkələr üçün populyarlıq kəsb edir.

3. Mədəniyyətdə kütləviləşmə yeni texnologiya vasitəsi ilə yüngülləşsə də, bu, heç də texnikanın inkişafı ilə bağlı deyil, keyfiyyətliliyinə görə seçilir. Yüksək keyfiyyətə malik mədəniyyətin coğrafi ərazisi böyük olduğundan, kütləvi mədəniyyətin də coğrafi ərazisi böyükdür və hələ qədimdən seçilən mədəniyyətdə kütləvilik mövcud olmuşdur. Deməli, buna müvafiq olaraq kütləvi mədəniyyət anlayışı da insanlığın yaranması ilə əlaqədardır.

4. Elitar mədəniyyətin yaranma tarixi də qədimdir, çünki elitar təbəqənin yaratdığı yeni keyfiyyətli, zənginliyi ilə fərqlənən dəyərlər dəyər kütlə tərəfindən mənimsənilərək qiymətləndirilmiş, qorunmuş, kütləviləşmiş və nəsillərə ötürülmüşdür.

5. Beləliklə, qarşılıqlı əlaqənaticəsində yeni kütləvi mədəniyyətlərin yaranması və bunun bazasında tələbatları ödəyə biləcəj yeni elitanın formalaşması, sonrakı tarixi dövrlərdə isə bu elitanın keyfiyyət gücü sayəsində kütləvi mədəniyyətin yeni-vacib formasının yaranması mexanizmi qanunauyğun hal alır. Beləliklə, elitar mədəniyyətlə kütləvi mədəniyyət arasında qarşılıqlı əlaqə reallaşır və bu, mədəniyyətdə elitarlığın kütləviləşməsi qanunauyğunluğu adlanır.

**Elmi yenilik.** Zaman-zaman təşəkkül edən və öz zəngin fəaliyyətini durmadan artıran elitar mədəniyyət özünəməxsus funksiyaları ilə kütləvi mədəniyyətin inkişafına və istiqamətlənməsinə səbəb olmuşdur. Müxtəlif tarixi dövrlərdə bu prosesdə elitar mədəniyyətlə kütləvi mədəniyyət arasında olan

qarşılıqlı əlaqəliliyin qanunauyğunluğa çevrilməsi baş vermiş, bu prosesdə keyfiyyət amili mühüm əhəmiyyətə malik olmuşdur, bu da mədəni zənginlikdə əsas və aparıcı rola malik elit qüvvə tərəfindən həyata keçirilmişdir. Bu proses bu gün də davam etməkdədir.

## Ədəbiyyat


HACIYEV, Zeynəddin (2012). “Fəlsəfə” Ali məktəblər üçün dərslik. Bakı: Turan evi.

HÜSEYNOV, İlqar, ƏFƏNDİYEV Tural (2012). Kulturologiya tarixi. Dərslik. Bakı, Mars-Print.

İMANOV, Həmid (2010). Fəlsəfənin əsasları. Bakı: Turan evi.

MEHDİYEV, Ramiz (2010). Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb.

Mədəniyyət tarixi və nəzəriyyəsi (2010) . Ali məktəblər üçün dərslik. M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovanın ümumi redaktəsilə. Bakı: Sabah.

MƏMMƏDOV, Fuad (2016). Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı: “OL” MMC.

ŞOPENHAUER, Artur (2011). Dünya: iradə və təsəvvür kimi. Bakı: Təknur MMC.

TAĞIYEV, Əlikram (2012). Siyasət nəzəriyyəsi, Bakı: Elm və təhsil.

НИЦШЕ, Фридрих (1990). О пользе и вреде истории для жизни». Сочинение в 2-х томах, том 1, Москва: Мысль.

ШПЕНГЛЕР, Освальд (1993). Закат Европы. В 2-х томах 1. Москва: Мысль.

ƏLİBƏYLİ, Elçin (2013). Elitar və kütləvi mədəniyyət. http: //elchinalibeyli.blogspot.com/2013/05/